# Cənubi Azərbaycanın milli hökumətlərinin orden və medalları - qürur tarixi...

**Azərbaycan xalqı tarixin hər dönəmində öz sözünü deyə, öz izini qoya bilib. Ən ağır, çətin mərhələlərdən, sınaqlardan qürurlu, əli dolu, ürəyi təpərli, dizi taqətli çıxıb. Paralanmış Azərbaycanın Güneyində hər zaman xalqımızın azadlığı və istiqlalı uğurunda çarpışan şəxsiyyətlər, fədailər olub ki, biz bu gün onların adlarını böyük qürurla çəkirik.**




1945-ci ildə Azərbaycanın Güneyində Milli Hökumətin çox çətin şəraitdə qurulması, fəaliyyəti, burada verilən qərarlar, görülən işlər hər biri xalqımızın tarixində əhəmiyyətli hadisələrdəndir. Azərbaycan Demokrat Firqəsinin-Azərbaycan Milli Hökumətinin 1 il çəkən fəaliyyəti dövründə görülən işlərin sırasında "Səttarxan" ordeninin və "21 Azər" medalının təsis edilməsi də var.

"Güney Azərbaycanın tarixi irsi" rubrikasında Milli Hökumətin təsis etdiyi orden və medaldan, onlara layiq görülən fədailərdən, dövlət və ictimai-siyasi xadimlərdən danışacağıq.

Tədqiqatçılara görə, "21 Azər" medalı 1946-cı ildə təsis edilib. Azərbaycan Milli Hökuməti tərəfindən milli-demokratik hərəkatda iştirak edən 20 min nəfər "21 Azər" medalı ilə təltif edlilib. Milli Hökumətinin dağılmasından sonra medalın verilməsi də dayandırılıb.

Tədqiqatçı Səməd Bayramzadənin tədqiqatlarında "21 Azər" medalı və "Səttarxan" ordeninin təsis olunması və verilməsi qaydaları, habelə təltif edilən şəxslər barədə geniş bəhs olunur.

Azərbaycan Demokrat Firqəsinin rəsmi orqanı olan Azərbaycan qəzetində bu medalın təsis edilməsi haqqında bunlar yazılıb: "Milli Hökumətin 7 fevral 1946-cı il tarixli iclasında fədai hərəkatında müstəqim və qeyri-müstəqim surətdə iştirak edənlərin şərəfini təzmin etmək üçün onlara "21 Azər" adlı bir medal verilməsi qərara alınmışdır".

"Səttarxan" ordeni Milli Hökumətin ali ordeni olub və 10 nəfər şəxsiyyət bu medala layiq görülüb. Bildirək ki, "Səttarxan" ordeni 1946-cı ildə təsis edilib və həmin ilin sentyabr ayının 3-də Azərbaycan Milli Hökuməti tərəfindən milli-demokratik hərəkatda iştirak edən 10 nəfərə təqim edilib. Milli Hökumətinin dağılmasından sonra ordenin verilməsi də dayandırılıb. "Səttarxan" ordeni ilə yalnız 10 nəfər təltif edilib.

Bunlar Cənubi Azərbaycan Milli hökumətinin müdafiə naziri, general-mayor Cəfər Kavian, general-mayor Qulam Yəhya, Azərbaycan Demokrat Firqəsinin maarif naziri, görkəmli şair. Məhəmməd Biriya, Milli Hökumətin Ərdəbildən olan məclis üzvü Məmi Dehqan, Təbriz radiosunun müdiri Mirqasım Çeşmazər, Azərbaycan Demokratik firqəsinin üzvü, tədqiqatçı, publisist Mirrəhim Vilayi, general-mayor, Azərbaycan Milli Hökumətinin Yollar, Poçt və teleqraf naziri Mirzə Rəbi Kəbiri, İran kommunist partiyasının üzvü, Cənubi Azərbaycan Milli Hökumətin başçılarından biri Nüsrətullah Cahanşahlıhəkim, Pişəverinin müavini Sadıq Padiqan, Azərbaycan Demokrat Firqəsinin fəalı, Azərbaycan Milli hökumətinin Ali məhkəməsinin sədri Zeynalabidin Qiyami idilər. "Səttarxan" ordeni onlara Azərbaycan Demokrat Firqəsinin bir illiyi münasibətilə Seyid Cəfər Pişəverinin özü tərəfindən təqdim olunub. Bu barədə Firqənin rəsmi orqanı olan "Azərbaycan" qəzetində geniş bəhs edilib.

Heç şübhəsiz ki, həm "21 Azər" medalı, həm də "Səttarxan" ordeni xalqımızın qürur tarixinin sönməz məşəlləridir. Səttarxan Hərəkatı da, 21 Azər Hərəkatı da xalqımızın milli mübarizə tarixində xüsusi yer tutduğu üçün bu medal və ordeni daşıyanların hamısı Azərbaycan xalqının böyük ehtiramla yad etdiyi şəxsiyyətlərdir. "21 Azər" medalına layiq görülənlərin sayı 20 min olduğu üçün o parlaq simaların, əqidəli insanların, əsl fədailərin adlarını bir-bir çəkə bilmirik, amma arxiv sənədlərində, tədqiqat əsərlərində o cəsur insanların hər birinin adları qızıl hərflərlə yazılıb. Gizlin deyil ki, Milli Hökumət süqut etdikdən sonra hökumətdə təmsil olunan şəxsiyyətlərin, eləcə də əqidəli firqəçilərin, milli mübarizlərin cəmi 1 faizi bu taya keçə bildi, qalanları isə Güneydə qaldı və şah rejimi tərəfindən hər cür əzaba düçar edildilər, edam kürsüsünə çıxarılıb dar ağacından asıldılar, güllələndilər.

Dosent S.Bayramzadə məqalələrindən birində "1946-cı ilin dekabr ayının 12-də Azərbaycan Milli Hökuməti xarici imperializmin birbaşa siyasi, maddi və hərbi dəstəyi ilə İran şahlıq rejimi tərəfindən devrildi, şah qoşunları Azərbaycanı qan dəryasına çevirdi. Azərbaycanın 25 min nəfərdən çox demokrat və milli qüvvələrinin nümayəndələri güllələndi, dar ağacına çəkildi, minlərlə oğul və qızları zindana salındı. 100 mindən çox adam sürgünlərə göndərildi, mütərəqqi və demokratik ruhlu insanlar amansız təqibə məruz qaldılar"-deyə yazır.

Güney Azərbaycan Milli Hökumətinin hakimiyyət olaraq ömrü az olsa da, lakin bu gün də yaşayır. Günümüzdə milli hökumət ideyalarını, firqəçilik düşüncəsini özünə yol yoldaşı edən milyonlarla fədaimiz var ki, onlar mütləq mənada Milli Hökumətin çırağını yenidən yandıracaqlar...

*İradə SARIYEVA*